# Baş Prokurorluğun əməkdaşları beynəlxalq seminarda iştirak ediblər

İyunun 13-15-də Moskva şəhərində "Rusiya Federasiyasının Baş Prokurorluğu ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu arasında 2021-2023-cü illər üzrə Əməkdaşlıq Proqramı"nın 2-ci bəndinin icrası ilə əlaqədar "Prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi. İnformasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlərə, habelə internetdə qadağan olunmuş məlumatların, o cümlədən ekstremist və terror xarakterli məlumatların yayılmasına qarşı mübarizə" adlı seminar keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, seminarda Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi Murad Dadaşov, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Ramil Ədilov, Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin böyük prokuroru Nigar Əskərova və Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Elvar Həsənovdan ibarət nümayəndə heyəti iştirak ediblər.

Seminar zamanı informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlər, qadağan olunmuş, ekstremist və terror xarakterli məlumatların yayılmasına qarşı mübarizə və digər mövzular ətrafında müzakirələr aparılıb, bu sahədə milli qanunvericilik barədə ətraflı məlumat verilib. Bunlarla yanaşı, təlim iştirakçıları arasında faydalı təcrübə mübadiləsi aparılıb.

Azərbaycan.- 2022.-17 iyun.- S.15.